# Onlar Vətən uğrunda vuruşmuşlar

**Ağladı yol üstə dilsiz qayalar...**

Allah bəxş edər insana ömrü! Bu ömürlər də hər kəsə özünə, adına, xarakterinə uyğun. Elə insan var ki, bir əsr yaşar və bu ömrü həyatı tərk edərkən kəpənək kimi uçurar. Elə ömür də var ki, fidanlığı ilə əsrə bərabər bir qiymət qazanar, ən azından bir neçə nəsil yaşar. Ömür də var ki, əbədiyaşarlıq qazanar və o ömrün dəyəri tarixləşmə yaradar.

Mayası nur, qayəsi nur insanlardır belə ömürlülər. Onların vicdanlarında sanki doğuluşdan "süd işıqlar yaranar" və yaşadığı ömürə bu işıqlar mayak olar. Onlar milli mənəviyyatca zəngin, vətənpərvərlik girdabında xalqına, mənsub olduğu dininə, yaşadığı torpağa olan sevgiyə çulğaşmış insanlardır. Həyata göz açandan onların həyat qayəsi halallıq olmuşdur. Nə qədər çətinliklərlə qarşılaşsalar belə qorxmazlıq, mərdlik belə insanlara yol yoldaşı olub. Onları isə doğulub, boya-başa çatdığı ailə və ailənin özünəməxsus qanunları formalaşdırıb, yaşadığı mühit yetişdirib.

Onlar vətən göylərində durulan, torpaq sevgisində qızınan, xalqına məhəbbət və istəkdən qidalanan vətənpərvər oğullar, ölümün gözünə belə dik baxa bilən şəhadət yolçularıdır.

İnsan bir dəfə doğular, bir dəfə ölər. Ölüm də öz qanununu icra edər. Bu təbii haldır. Ancaq ölüm də var ki, bəzən qanunlarını məcaziləşdirər. Bu məcazilik isə itkinlik məfhumunu yaradar və insanları sınağa çəkər...

**Bütün keçilməzliyi, Vətən, adınla keçdin...**

30 illik bir acıya son qoymaq mənfur düşmən tapdağında olan torpaqlarımızın azadlığı, evindən, ocağından məcburi köçkün olan insanların həsrət və dərd yüklü mənəvi iztirabları, "məğlub ölkə vətəndaşı" adı Qarabağ torpağını görməyən gəncləri belə həmişə narahat edirdi. Onlar sülh danışıqlarına riayət etməyən, atəşkəsi daima pozan erməni və ermənipərəst faşistlərindən şəhidlərimizin öcünü almaq üçün məqam - Ali Baş Komandanın əmrini hər an gözləyirdilər. Bu əmr 2020-ci ilin sentyabrının 27-də verildi. Vətənpərvər gənclərimiz silaha sarıldı. 44 günlük müharibədə "Dəmir yumruq" da birləşərək qəhrəman gənclərimiz igidlik nümunəsi göstərdilər. Ölümdən qorxmayan igidlərimiz 30 illik həsrətə son qoyaraq zəfər qazandılar. Bu zəfəri qazanaraq yeni tarix yazan igidlərin arasında 50-ə yaxın şəhadətçi qədim Qəbələ vətəndaşları idi. Onlar 2020-ci ilin iyul ayında baş vermiş Tovuz hadisələri, bu hadisələr zamanı həlak olan igid hərbçilər və general-mayor Polad Həşimovun xain düşmən atəşilə ölümündən sonra onun qisasını almaq üçün məqam axtarırdılar.

**Vətən sevgisi**

Təbii haldır ki, heç bir qələbə, zəfər itkisiz qazanılmır. Bu müharibədə də 3000-dən çox oğul itirdik, sağlamlığını itirən gənclərimiz də çox oldu. Şəhadətə qovuşanlarımızın arasında itkin düşənlərimiz, nəşi zəfər bayramından sonra tapılan oğullarımız oldu. Onlar rayonumuz üzrə 12 nəfər idilər. Ölüm və itkin düşməyin fərqi çox böyükdür. İtkin düşən əsgərlərimizin valideynləri, əzizləri bəzən inamla yaşarlar-bəlkə oğlum sağ tapılacaq deyə. Ancaq bu düşüncəylə belə həftələrlə axtarışlar olurdu. Və bu axtarışlar, soraqlaşmalar zamanı əsgər anaları hər gün dəfələrlə ölüb-dirilirdilər. Müharibə zonasını qarış-qarış gəzir, soraqlaşırdılar. ən acısı isə morqlarda axtarış aparılması idi. Bu acını sözlə ifadə etmək mümkünsüzdür. Rayonumuz üzrə zəfər qazanıldıqdan sonra 12 şəhidin nəşi tapılmış və doğma obasında torpağa tapşırılmışdır. Qayaların belə göz yaşına büründüyü bu günlərdə şəhid əzizləri hər qapı səsinə, hər tıqqıltıya diksinər, hansı xəbəri eşidəcəyindən ehtiyat edərək göz yaşını ürəklərinə axıdardılar.




Məmməd Araz şeirlərində deyildiyi kimi:

*Bir xəbər diləyib çəndən-çiçəkdən,*
*Analar qovrulub yol qırağında*
*Ağlaya-ağlaya yol gözləməkdən*
*Analar daş olub yol qırağında.*

Gecələr itkin valideynləri bütün varlığıyla "qan ağlardılar". Onlar bir ümid, bir inam işığı fikriylə yaşasalar belə sanki, övladları göz önündə onlarla danışardı:

*Yüyür mənsiz dağlaracan, buludlaracan,*
*Haray çəksən qayalarda səslənər adım.*
*Bu torpağa səpilməyə dən kimi acam,*
*Bu torpağın dan yerində dəfn olunaydım.*

Analar-döyüşən oğulları itkin düşən analar Məmməd Araz şeirində deyildiyi kimi dərd əlindən əjdahaya dönər.

*Görmüsənmi ana dönüb əjdaha ola?*
*Dünya olur, özü də ki, min ilin acı.*
*Belə anda qurtarmağa bir anın qalar,*
*Bir də qəfil ələ düşən ümid qırmancın.*

**On ikilər...**

Onlar - arzuları əzizlərinin qəlbində donan, əbədilik gənclik ömrü seçən, arzu, istəkləri bir nisgilli nağıla dönən, çiliklənən igidlər idi. Hər birinin üzündə arzu yelkəni ilə bərabər, baxışlarında qəm kölgəsi məskən salmışdır. Sadəcə ruhları nigaran deyil, çünki onların qisası silahdaşları tərəfindən artıqlaması ilə alınmışdır; zəfər çalınmışdır.

**Düşünər ki...**

Hər qapının döyüntüsü,
Hər əsgərin görüntüsü,
Hər baxışda məna dolu
bir axtarış,
Hər pıçıltı inanclara,
inamlara ümid olar.
Anaların ürəyinə fırtınalar,
təşviş dolar,
İtkin düşən balaların
sorağında,
Qara rəngli, qar qoxulu
laylaların sorağında.

* * *

Dünya özü duman olar,
Duman özü güman olar,
Gümanlarsa qəlb evində
Ümid dolu ümman olar...
Sənədlərdə, qazilərin sırasında,
soraqlanar itən əsgər,
Dağda, düzdə, meşələrdə,
çaylaqlarda,
İz axtarar hər əşyanın
arasında,
Dərələrdə, səngərlərdə, yaylaqlarda.

* * *

Günlər ilə, həftələrlə, aylar ilə,
Axtarılar neytraldan,
qan tökülən hər qarışdan,
Sənədlərdə axtarılar sıra ilə,
saylar ilə,
Morq qapısı... həyəcanlı baxışlardan...
Axtarılar buz parçası
nər igidlər arasından,
Titrər əllər, ürəkləri
buza dönər!
Nişan verər əzizləri eşitdiyi
yarasından,
Damarlarda qanı donar,
gözlərinin nuru sönər,
Əzizləri axtaranda
itkinləri,
Dirisinə inamı yox,
Düşünər ki, ölüsünü
tapım barı!..
Bir özünü tapım
barı...

**Gecikmiş dəfnlər**

Zəfər uğrunda döyüşərək, zəfər sevincini yaşaya bilməyən qəhrəman qəbələli gənclər, zirvə fatehləri:

- Ruslan İdrisov (2002)-2020-ci il oktyabrın 1-də şəhid olmuş, noyabrın 28-də dəfn olunmuşdur.

- Aqşin Qədirzadə (1999)-2020-ci il oktyabrın 4-də itkin düşmüş, oktyabrın 18-də şəhid xəbəri gəlmiş, dekabrın 18-də nəşi doğulduğu doğma kəndinə gətirilərək dəfn olunmuşdur.

- Azər Musazadə (1998)-2020-ci il 13 oktyabrda şəhid olmuş, noyabrın 30-da dəfn olunmuşdur.

- Adəm Heydərov (2000)-2020-ci il oktyabrın 13-də şəhid olmuş, noyabrın 17-də dəfn olunmuşdur.

- Əsəd Zeynallı (1999)-2020-ci il 13 oktyabrda şəhid olmuş, noyabrın 16-da dəfn olunmuşdur.

- Elnur Rəhimov (2000)-2020-ci il noyabrın 1-də şəhid olmuş, dekabrın 1-də dəfn olunmuşdur.

- Ağaşirin Babayev (2001)-2020-ci il noyabrın 3-də şəhid olmuş, 19 noyabrda dəfn olunmuşdur.

- Təbriz Qasımov (1993)-2020-ci il noyabrın 5-də şəhid olmuş, noyabrın 7-də dəfn olunmuşdur.

- Aqşin Ənvərli (1994)-2020-ci il noyabrın 6-da şəhid olmuş, noyabrın 17-də nəşi tapılmış, 18-i dəfn olunmuşdur.

- Bəhruz Abuşov (1983)-2020-ci il noyabrın 8-də şəhid olmuş, 11 noyabrda dəfn olunmuşdur.

- Qoşqar Üzeyirov (2002)-2020-ci il noyabrın 7-də şəhid olmuş, noyabrın 21-də dəfn olunmuşdur.

- Fariz Rəhimov (2001)-2020-ci il noyabrın 9-da şəhid olmuş, noyabrın 12-də dəfn olunmuşdur.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**BİBİXANIM**

# Ağ rəngin sehrində

**Həyat rəmzi**

Uşaqlıqdan ölümün rəngini öyrənmək istərdim. Əzizini itirənlərin qara rəngə büründüyünü görüb düşünərdim ki, ölüm qara rəngdədir. Ancaq ruhların göylərdə yaşadığını eşitdikdən sonra ölümün mavi rəng olduğunu düşündüm. Mavi ənginlik ruhların məskənisə, ruhlar da ağ libasdadırsa, ağ rəngin də canlı həyat rəmzi olduğunu fikirləşdim. Həqiqətən də ağ rəngin sehrinə inandım. İnsanların həyatının keşiyində dayanan, onların həyatına həyat bəxş edən həkimlərin geyimi ağ rəngdə. Ağ rəngin sehri insan həyatına çox zaman yaşam bəxş edir. insan üçün can sağlığı vacib şərtdir, yaşama qarantidir. Həkimlər onların ən çox sevdiyi. İnandığı şəxslərdir.

Bu peşə sahibləri əgər sənətinə sevgi və hörmətlə yanaşarlarsa, dünyada ölüm sayı azalır və onlar insanların ümid, inam və səcdəgahına çevrilirlər. Belə bir peşə sahibidir İlqar həkim.

**Tanıyırsınızmı?**

Ziyalı bir ailənin övladıdır. Dünyaya göz açandan ailəsində insanların sağlamlığı və təhsilinin başlıca mövzu olduğunu görmüşdü. Atası həkim, anası müəllim... İllər keçdikcə qardaşının məhz ağ rəngin sehrinə düşdüyünü görür.

Atası Şahismayıl həkimin əhali arasında savadlı, qayğıkeş bir insan, öz peşəsinə hörmətlə yanaşan biri olduğunu gördükcə qəlbində bu peşəyə istək artır.

Qardaşı Vüqar İsmayılov da rayonda özünəməxsus hörmət qazanan bir peşə sahibi idi. Ömür vəfa etsəydi, bəlkə də, Vüqar ...... daha tanınmış həkim ola bilərdi. Faciəli şəkildə yaşamını itirdi və qəbələlilər gözəl və bacarıqlı bir sağlamlıq keşikçisini itirdilər.



Onun kiçik qardaşı da stomatoloqdur və hazırda Bakıda çalışır.

İlqar həkim 1979-cu ilin may ayının 22-də Qəbələ şəhərində doğulmuşdur. Orta təhsilini başa vurduqdan sonra 1996-2002-ci illərdə Azərbaycan Tibb Universitetinin Müalicə işi fakültəsində təhsil alıb. 2002-2003-cü illərdə Elmi-Tədqiqat Kardiologiya İnstitutunda internatura keçmişdir.

0, 2006-cı ildən Qəbələ RMX-da həkim kardioloq vəzifəsində çalışır. İşlədiyi müddət ərzində ona məraciət edən xəstələrə həmişə qayğı ilə yanaşmış, xəstələrlə həm davranış səviyyəsinə, həm də öz peşəsinin kamil bilən bir peşəkar həkim kimi hörmət qazanmışdır. İlqar həkimin müaliçə etdiyi xəstələr həmişə ondan razılıq etmiş, minnətdarlıqlarını bildirmişlər.

İlqar həkim atası Şahismayıl və mərhum qardaşı-Vüqar həkimə görə deyil, məhz öz insanlığına və peşəkarlığına görə hörmət qazanmış, qəbələlilərin sevimlisinə çevrilmişdir. Onu da qeyd edək ki, redaksiyamıza müalicə etdiyi xəstələrdən onun ünvanına

**(Ardı 6-cı səhifədə).**